WWW.KASPI.AZ
18 fevral 2017



■ Dayandur Sevgin

# "Mən çiçək yerinə şeir gətirdim..."

## *Güləmail Muradın "Dağlarda şəhid səsi" və "Günəş qürub edəndə" kitabları barədə bir neçə söz*

Güləmail Muradın "Dağlarda şəhid səsi" və "Günəş qürub edəndə" adlı şeirlər kitabları ilə tanışlıq zamanı bir daha əmin oldum ki, poeziya, doğrudan da, insan qəlbində yanan atəş kimidi; həqiqi şair qeyri-ixtiyari olaraq və əzab çəkə-çəkə yanır, bu prosesdə özünü də yandırır. Eyni zamanda yaradıcı insan bu və ya başqa şəkildə yaratdığı sənət əsərinə hopur; düşüncəsi, həyata baxışı, səmimiyyəti, xarakteri ilə bir arada. Yəni yaradıcı insan hansı mövzuda, kimdən və nədən yazmasından asılı olmayaraq, yazdığının iç dünyasında onun özünün obrazı ilk ifadəsini tapır. Çünki yaradıcı insan ilk növbədə yaratdığını yaşayır, qələmə aldığı hər bir predmeti öz taleyinin bir parçası kimi duyur.

Güləmailin adıgedən kitablarına daxil etdiyi şeilərin də ümumi mənzərəsi belədi. Bu şeirlərin hər bir misrasında Güləmail Muradın tariximizə, milli-mənəvi dəyərlərimizə, döyüş ruhumuzun və vətən sevgimizin əzəmətinə etinalı, heyran, vəfalı obrazı özünü büruzə verir. Filologiya elmləri doktoru Elçin Mehrəliyevin də qeyd etdiyi kimi, Güləmailin şair, vətəndaş səciyyəsi, obrazı ilə ana obrazı bir-birini yaxşı tamamlayır. Bu dəyərlər onun sənətkar taleyinin qoşa qanadları kimidi. Və məhz bu baxımdan da istər "Günəş qürub edəndə", istərsə də "Dağlarda şəhid səsi" adlı şeirlər və poemalar kitablarına daxil edilən əsərlər öz təsvir predmetləri ilə bir arada, necə deyərlər, iç-içə Güləmailin də həssas, səmimi şair, vətəndaş və ana obrazını göz önünə gətirir.

AMEA-nın müxbir üzvü, alim Nizami Cəfərovun "Ön söz"də qeyd etdiyi kimi, Güləmail öz doğma kəndinin simasında bütöv bir dünyanı səciyyələndirə, təqdim edə bilir. "Şairin sevgisi təkcə öz kəndi ilə tamamlanmır, onun vətən məhəbbəti bir kəndin timsalında bütöv Azərbaycan sevgisinə çevrilir". Eyni zamanda Güləmail öz şair, vətəndaş, ana varlığında təkcə bir insan ömrünü yaşamır, həm də Azərbaycanın Milli Qəhrəmanları Gültəkin Əsgərova, Şahlar Şükürov, Şahin Tağıyev, eləcə də şəhid döyüşçülər Nazim İbrahimov,




Məcid Ramazanov, Əhməd Əhmədov, Zabit Nuriyev, Məmməd Məmmədov, Ariz Omarov və başqalarının ömür ortağına çevrilir, onların tarixi missiya daşıyan xatirələrinin əbədiləşməsi üçün söz-söz əriyir, "unutsaq unudularıq" düşüncəsilə yazıb-yaradır.

*Vətən oğulları qoy şeirə dönsün,*
*Şirin nəğmələrdə gəzsin adları.*
*Keçib sərhədləri, aşıb dağları,*
*Bir azca isitsin buz dodaqları.*

Bu mənada, Güləmail Muradın özünəməxsus yaradıcılığının aparıcı qolunu təşkil edən vətəndaşlıq, qədirbilənlik faktoru oxucuda daha böyük təəssürat doğurur. Onun poeziyası ilk növbədə tərbiyə edir, yönəldir, səfərbəredici missiya daşıyır.




Müəllif kitablarına daxil etdiyi hər bir mətndə Vətənimizin azadlığı və ərazi bütövlüyü naminə canlarını qurban vermiş hər bir Azərbaycan insanının xatirəsi önünə dərin minnətdarlıq, heyranlıq duyğularının təcəssümü olan söz çələngi qoyur, poetik abidə ucaldır. Qeyd edir ki, yaranışından hər insanın bəxti, taleyi alnına yazıldığı kimi, hər xalqın taleyi də onun ömür yollarını təyin edir. Şübhəsiz ki, bu ömür yolunun işığa, azadlığa, mübarizəyə aparan səmtləri ilk növbədə xalqın fədakar, cəsur övladlarının vətəndaşlıq əzmindən keçir.

Xalq həmişə öz mübarizə əzmi, milli dirçəlişi ilə güclü olur. Güləmail Murad bədii yaradıcılığında bu amilləri bir qayda olaraq həmişə önə çəkir.

"Dağlarda şəhid səsi" kitabına maraqlı "Ön söz" yazan professor N.Cəfərov məhz bu baxımdan qeyd edir: "Mən kitabın əlyazmasını oxudum və qənaətim bu oldu ki, doğrudan da G.Murad vətəndaş şairdir. O, bir ana kimi, bir Azərbaycan qadını kimi öz duyğu və düşüncələrini şair təxəyyülünün süzgəcindən keçirərək, onu ədəbiyyat materialına çevirə bilir. Mən bu kitabda iki obraz gördüm; bir ana, qadın olan Güləmail, bir də şair səciyyəsi olan şair Güləmail Murad. Hər ikisi yüksək vətəndaş duyğusu ilə bir-birini tamamlayır, bir-birinə arxa, dayaq olur. Şəhidərimizi ağlayan Güləmail nəticədə şəhidlərimiz üçün gözəl şeirlər, poemalar, esselər, hekayələr yazan və onların adlarını ədəbiyyatda əbədiləşdirən şair Güləmail Murada çevrilir".

*Mən çiçək yerinə şeir gətirdim,*
*Şerim çiçək olsun, şəhidim mənim -*

yazan şair çiçək əvəzi şeirlərinə ilk növbədə ürəyinin hərarətini, minnətdarlıq və qəhrəmanlıq önündəki heyrətini də qatır. Bu şeirlər ürək qanı və vətəndaşlıq duyğuları ilə yazıb. Eyni zamanda bu mövzular günün mövzularıdır. Hiss olunur ki, G.Murad aldığı hər nəfəsdə yurdunun, xalqının qayğıları, istəkləri ilə bir arada yaşayır. Bu, əsl şair missiyası, stixiyasıdır.

Hər yeni kitab oxucu üçün yeni bir dost ünvanı, dost qapısıdı. Bu mənada G.Muradın haqqında bəhs etdiyimiz kitablarının bir ömür boyunca oxucu yaddaşında əsl dost yeri, ünvanı tutacağına ümidliyik.